# Sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara yüksək diqqətin təzahürü

Aprelin 8-də Milli Məclisin Elm və təhsil komitəsinin video-konfrans formatında növbəti iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə ikinci oxunuşda olan iki qanun layihəsi - "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib.

Qanun layihələri barədə geniş məlumat verən komitə sədri bildirib ki, təklif olunan dəyişikliklər ölkə Prezidenti İlham Əliyevin əhalinin aztəminatlı təbəqələrindən olan və sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsilə əlçatanlığını təmin etməklə yanaşı, bu kateqoriyadan olan insanların əhatə dairəsinin də genişləndirilməsinə zəmin yaradacaq. Qeyd olunub ki, Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi, peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi, habelə ali təhsil müəssisələrində dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının və həcminin ilbəil artırılması və digər islahatlar dövlət başçısının təhsilə, insan kapitalının inkişafına, xüsusən də sosial müdafiəyə ehtiyacı olan həssas əhali qrupuna aid edilən vətəndaşlara yüksək diqqətinin təzahürüdür.

Məsələlərin müzakirəsində Elm və təhsil komitəsi sədrinin müavini Musa Qasımlı, komitənin üzvləri Ceyhun Məmmədov, Etibar Əliyev və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək, qanun layihələri ilə bağlı fikirlərini bildiriblər.

Hər iki qanun layihəsi ikinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.2.